FƏLSƏFƏ VƏ SOSİOLOGİYA

**UOT 1**

# ŞUMER VƏ KEÇMİŞ TÜRK İNANCLARI ARASINDAKI OXŞARLIQ VƏ FƏRQLİLİKLƏR

**Nazim HÜSEYNLİ***

Məqalə redaksiyaya daxil olmuşdur: 7 fevral 2023; çapa qəbul edilmişdir: 4 mart 2023; online-da çap edilmişdir: 30 mart 2023.

Received: 7th of February, 2023; accepted: 4th of March, 2023; published online: 30th of March, 2023.

**Açar sözlər:** *şumerlər, qədim türk, inanc, mifologiya, mədəniyyət*

## Giriş

Şumer sivilizasiyası b.e.ə. IV minillikdə Dəclə və Fərat çaylarının arasında – Mesopotamiyada yayılmışdır. Bu sivilizasiyaya akkad mədəniyyəti də daxil idi. Şumerlər 6000 il əvvəl məhz bu ərazilərdə yaşayıb-yaratmış, böyük sivilizasiya qurmuşlar və ən azı 2000 il öz varlıqlarını davam etdirmiş, uzun müddət bu mədəniyyəti qoruyub saxlamışlar (8). F.Ağasıoğlu qeyd edir ki, tarixçilərin əksəri şumerlərin IV minilin ortalarında İki çay arasına gəlməsi faktını qəbul edir, lakin haradan gəldikləri haqqında hələlik gerçək bilgi əldə olunmamışdır. Onlar haqqında ilk məlumatı tarix elminə Jül Oppert 1869-cu ilin 17 yanvarında gətirmişdir. F.Ağasıoğlu türklərlə sumerlər arasında çoxsaylı bənzərlikləri üzə çıxarmış dil paralelliklərinə dayanaraq şumer-türk əlaqələrini irəli sürmüşdür. O yazır: *"Şumer dili ilə türk dilləri arasında bənzərliklər çoxdur"* (1, 180). Bu kimi paralellikləri əsas götürərək şumer-türk genetik yaxınlığını iddia edən alimlər çoxdur. Bu iddiada olan Türkiyədən M.İ.Çığ, Qazaxıstandan O.Süleymenov, Azərbaycandan F.Ağasıoğlu və b. alimləri göstərmək olar. Sovet dövründə O.Süleymenovun "Az-Ya" kitabında türk xalqlarının tarixinə yeni yanaşma, fərqli, orijinal münasibət sərgilənir. Bu əsər Sovetlər dönəmində təqiblərə məruz qalmışdır, hazırda bir çox dillərə tərcümə edilmiş və nəşr edilmişdir. O bu kitabında iki dil arasında bənzərliklərə diqqət çəkmiş, hər iki dildən qədim sözləri seçib toplamış səs və məna baxımından 60 sözü bir-birinə yaxın görmüşdür. Ancaq bu fikirlər dünya şumerologiyasında heç də birmənalı qarşılanmır. Prototürk boylarının cənubi-qərbi bölgələri haqqında ilk yazılı qaynaqlar məhz şumer dilindədir. Şumer epik əsərlərində Güney Azərbaycanda qurulan Aratta, Lulu və Qut dövlətlərinə aid sənədlərlə yanaşı, şumer-türk əlaqələrini aşkar göstərən dil paralelləri qədim türk boylarının cənubi-qərbi sərhədlərini müəyyən etməyə imkan verir.

## Şumer yazıları

Onların sivilizasiyasının ən mühüm hadisəsi dillərinə uyğun mixi yazıları kəşf etmələri idi. Arxeoloji qazıntılar zamanı bilinmişdir ki, şumer xalqı yüksək mədəniyyətə

* *fəlsəfə elmləri doktoru, professor, Bakı Avrasiya Universiteti*
e-mail: nazimhuseynli56@gmail.com
https://orcid.org/0009-0007-0141-823X

malik olan xalq olmuşdur. Onların mədəniyyətində daha çox məktəblər qurmaq, gil üzərində yazı yazmaq, yazı mədəniyyətini inkişaf etdirmək açıq-aşkar görünür. Mixi yazı adlanan bu yazı həm şumerlər dövründə, həm də sonralar istifadə edilmişdir. Tarix səhnəsinə çıxan Yaxın Şərq xalqları da bundan öz dilləri üçün istifadə edirdilər. Hazırda həmin ərazilər Türkiyənin cənubi-şərqini əhatə etməkdədir ki, bu ərazilərdə aparılan arxeoloji qazıntılar zamanı şumerlərin gil üzərində mixi yazıları tapılıb oxunmuşdur. Şumerlərə aid bilgilər də məhz bu gil kitabələrdən alınmışdır. Şumerlərin mixi yazını kəşf etmələri e.ə. 3400-ci illərə təsadüf edir. İlk əvvəl şumerlər ticarətdə hesab-kitab etmək üçün gil lövhələr üzərində yazılar yazmışlar. Daha sonra tarixi qeydlər, şeirlər yazılmışdır. Ədəbiyyat və şeir qədim şumerdə güclü olsa da, fəlsəfə qədim Yunanıstandakı kimi güclü deyildi, amma şumerlərin elmi kəşfləri bu gün də bütün dünyaya bəllidir. *"Şumer dili aqlütinativ dildir: müxtəlif qrammatik funksiyaları və münasibətləri ifadə edən prefikslər və şəkilçilər "zəncir"ində isim və ya feil kökünə bağlanır"* (8). Şumer dilini müqayisəli üsullarla daha yaxından tanımaq cəhdləri çox olsa da, hələ də uğursuzdur. Çünki müqayisə edilə bilən dillər yalnız eramızın 500-cü ilindən və ya 1000-ci ildən məlumdur, yəni müqayisə sonrakı dövrün dilləri ilədir. Uzun müddət ərzində bir dildə, xüsusən də yazılı normada sabit olmayan dəyişiklik sürəti o qədər böyükdür ki, sözlər arasında görünən oxşarlığın ilkin əlaqəyə qayıdıb-qayıtmadığını və ya təsadüfi olduğunu artıq müəyyən etmək mümkün deyil. Deməli, şumer dilinin bir vaxtlar mənsub ola biləcəyi dil qrupuna dair daha dəqiq məlumat əldə etmək mümkün deyil.

**Şumerlər və qədim türklərin inanclarındakı paralellər**

Şumerlərin dünyagörüşləri və inancları ilə qədim türklərin kosmoqonik düşüncələrində və inanclarına çox sayda oxşarlıq olduğu görülməkdədir.

Biz də bu araşdırmamızda qədim inancların bənzər və fərqli cəhətlərini üzə çıxarmağa çalışacağıq. Qədim türklərin inancında üç istiqamət var idi: təbiət qüvvələrinə inam, atalar kultu və Tanrıya inam. İnancın ilkin əsasını təşkil edən təbiət qüvvələrinə inam çox millətlərin inancında var idi. Ümumiyyətlə, dinin əsasını, yəni başlanğıcını mifologiya təşkil edir. Mifologiya ilkin, din isə sonrakı mərhələdir. Miflər daha ilkidir. Sonrakı mərhələdə isə mifologiya dini inanc sisteminə çevrilir. Nə qədim türklərdə, nə də qədim şumerdə kitablı din yox idi. Bunlara isə ümumiyyətlə, din demək doğru olmazdı. Bu daha çox dini inanc sistemi kimi görülürdü. Məşhur Türkiyəli şumeroloq M.İ.Çığ yazır ki, qədim zamanlarda insanlar bilmədikləri fövqəltəbii hadisələrə məna verə bilməmiş bu səbəbdən tanrıları yaratmışlar. Şumerlərdə hər şeyin bir tanrısı var idi. Onlar öz inanclarına aid şeirlər yazmış, tanrıları razı salmaq üçün onlara qurbanlar vermiş, dualar etmişlər (5).

Şumerlərlə türklərin dini inanc sistemi arasında əsaslı fərq şumerlərdə çoxallahlılığın olması idi. Amma türklərdə isə təktanrılı inanc sistemi idi. Şumerlər qadını tarlaya bənzədirdilər. Bu fakt isə türk inancında özünü fərqli göstərir. Belə ki, tanrıçılıq dini inanc sistemində yeri, göyü, bütün bəşəriyyəti tanrı yaratmışdır. Lakin ona yardımçı yalnız bir qadın ilahə görülür. Bu, Umay adlanır. Umay qadınları və uşaqları himayə edən müqəddəs ilahədir. Şumer inancına görə isə qadın ilahə İnanna məhəbbət tanrısı idi.

Şumerlərdə 7 sayı çox önəmlidir. Necə ki, 7 sayı Tövratda və Quranda çox işlənir. İnanca görə, göyün 7, şumer yeraltı dünyasının isə 7 qapısı var. Saylarla bağlı inam tanrıçılıqda yox, şamanizmdə öz əksini tapır. Türklərdə isə 9 sayı müqəddəs sayılırdı. Bu "Yaradılış" dastanında Qara xan 9 budaqlı ağac bitirir. Hər budağın altında bir insan yaradır. Bunlar 9 insan irqinin ataları olur. Türk təfəkküründə yerin 17 qatı var (4, 30). İnanca görə, şamanın paltarının ətəyində yeddi gəlincik və 7 zınqırov olur. Bu simvolik bir nüansdır. Şamanizmda belə bir inanc var ki, şamanın 7 qızı olmuşdur. Şamanlar insanlara

şəfa verir, trans halında isə paralel aləmlə əlaqə yaradır, ruhlarla danışır. Şumerlərdə isə hər hansı dini, qeyri-adi üstün qüvvəsi olan şəxs görünmür.

Türk əfsanələrində yaradılışla bağlı müxtəlif motivlər vardır (4, 30). Ancaq əsas motiv bir-birinə bənzəyir. Birinci kainat böyük miqdarda sudan ibarətdir. Allah Ülgən və ya şeytan Erlik bu suların üzərindən uçur. Birində dənizdən bir daş çıxıb Ülgəndə quruya çevrilir. Birində Erlik, birində adam, birində çöl ördəyi torpağı sudan çıxarıb yeyir. Yaradılışla bağlı inanclar qədim türk dastanlarında öz əksini tapır. Belə ki, "Yaradılış", "Köç", "Ergenekon" və s. qədim türk dastanlarında dünyanın yaradılması ilə bağlı epizodlar var. "Yaradılış" dastanında dünyanın başlanğıcında yalnız Qara xanın və suyun olması deyilir. Birdən Ağ Ana peyda olur. O, "yarat" deyir. Qara xan isə uça bilən bir kişi yaradır (4, 30).

Digərində isə suda olan Akana və ya Ak-ene ilahəsi Ülgənə səmanı və yeri necə yaratmağı izah edir (5, 332). Ülgən də yerə, göyə "ol" deyir və olurlar (9, 433). Ülgənin yerə və göyə "ol" deməsi və kainatı 6 gündə yaradıb, yeddinci gündə dincəlməsi epizodu Quranda Allah motivi ilə "ol" deyərək, göyü və yeri 6 gündə yaradıb, yeddinci gündə dincəlməsi epizodu ilə paralel görülür.

Türklərin yeraltı dünyası ilə bağlı inancları şumerlərin inanclarına bənzəyir. Şumerlərə görə yeraltı dünyasına ölüləri çayla aparırlar. Çayın sonunda yeraltı dünyasının ilahəsi Ereşkiqaldır. Burada bir saray var. Oraya getmək istəyənlər üçün müəyyən qadağalar var (9, 566) Eyni motivlər isə qədim türk əfsanələrində də görülür. Qədim türk inancında isə "iç yer" adlanan yeraltı aləm var. İnanca görə, pis ruhların məskəni məhz buradır. Erlik yeraltı aləmin sakinidir.

Şumer əfsanələrində qəhrəman Luqalbanda, Zabu torpağından doğma Uruk şəhərinə, İmduquda qayıtmaq üçün quşunun dostluğunu qazanmaq istəyir. Quş yuvasında olmayanda balalarına yağ, bal, çörək verir və onlara baxır. Bu hekayələrdə quş və ilan motivlərinə Asiya əfsanələrində müxtəlif formalarda rast gəlinir. Teleut türkləri Merkit nəslindən olanlara görə, sağ qanadını günəş, sol qanadını isə ay əhatə edən müqəddəs göy quşudur (9, 599). Sibirdə şəhərlərin və yataqxanaların yaxınlığında dirəkdə ağacdan hazırlanmış ağac, quş şəkilləri təsvir olunur. Quşa "Göy quşu", dirəyə isə "Göyün dirəyi" deyirlər. Orta Asiya və Sibir əfsanələrində bu dirək "Həyat ağacı" kimi təsvir edilir. Həyat ağacı yeri və göyü birləşdirir (9, 598). Bu quş və ağac İnannanın öz bağında əkdiyi budaqsız ağaca bənzəyir. Sibir və Orta Asiyada şamanlar qartalı tanrının elçisi kimi görürdülər, əslində qartal şamanizmin atası idi. Altaylılardan Kögütey dastanında qəhrəman Karabatur atlarını oğurlayan "Kaankerede" adlı quşu axtarır. O, balasını əjdahadan xilas edir. Quş atlarını Karabutura qaytarır (9).

Qırğız xalqının qəhrəmanı Ertöştük zirvəsi göyə çatan çinar ağacındakı Alp Qaraquş obrazıdır. Balalarını yeməyə gələn əjdahanı öldürür. Quş da ona çoxlu yaxşılıq edir (9, 543). Başqa bir rəvayətdə isə quş Ertöştükü yeraltından çıxarır. Çıxarkən yeməkləri tükənir. Adam onların ətindən qoparıb verir. Yerə gələndə quş adamın ətini sağaldır (9, 541). Bir uyğur əfsanəsində Bilgə Bukanın əcdadlarından birinin yatdığı ağacın yanına bir quş gəlib civildəyir. Sonra adamı qaşımağa başlayır. Uyğurlar bu quşu tanrı hesab edirdilər (9, 86). Heyvanların onqon kimi qəbul edilməsi isə qədim türklərdə olsa da, şumerlərdə yox idi. Türklərdə hər bir tayfanın özünə simvol seçdiyi heyvan var idi. Seçilən bu heyvanlara onqon deyilirdi. Bu adət monqollarda da var idi. Onqonu canavar olan tayfa onqonu xallı maral olan digər tayfanın ziddinə getməz, onların onqonundan olan heyvanı ovlamazmışlar. Onqonu keçi olan tayfa isə yeni doğulan uşağın beşiyinə keçi dərisi qoyarmış. Bu adət Altaylarda görülməkdə idi. Quşları müqəddəs bilmə qədim şumerdə olduğu kimi, qədim türklərdə də var idi. Belə ki, inanca görə, bəzi quşların uğur və şans gətirəcəyinə, bəzi quşların isə uğursuzluq gətirəcəyinə inanılardı. Quşların xeyir

və şəri təmsil etməsi Azərbaycan xalq nağıllarında da, adət-ənənələrində də görülür. Simurq quşu, qu quşu xeyirli quş olduğu halda, bayquş bədbəxtlik gətirən quş kimi qəbul edilir. Yakut türklərində və Altaylarda qu quşunun gələcəkdən xəbər vermə kimi xüsusiyyəti də var.

"Şumerlərə təsəvvürlərinə görə, göy və yer bir idi. Tanrılar sonradan bunu ayrıma ehtiyacı duymuşlar. Yer yastı və dairəvi formadadır, göy isə bolşuqdan ibarətdir və onun sərhədi yoxdur. *"Şumerlər bu boşluğun hansı maddədən olduğunu bilmirdilər. Yerlə göy arasında üçüncü maddə -"lil"- "külək- hava, ruh" idi. Müasir zamanla baxdıqda atmosferin nəzərdə tutulduğu şübhəsizdir. Planetlər, Ay, Günəş və ulduzlar atmosferin yarandığı maddədən əmələ gəlmişdir."Göy-Yer" aşağıdan, yuxarıdan, hər iki tərəfdən intahasız okeanlarla əhatə olunmuşdur"* (2, 144).

Qədim Şumerdə mütəfəkkir insanlar dünya kosmoqonikası barədə düşünürdülər. Eyni zamanda dünyanın və ya bəşəriyyətin yaranması onları düşündürürdü. Şumerlər düşünməklə qalmamış, onlar önəmli fərziyyələr və mifik təsəvvürlər yaratmaqla bu düşüncələrini gil lövhələrə yazmağı bacarmışlar. Şumerlərin ilkin fikirlərinə görə ilk əvvəl dünyada su mövcud olmuşdur. Su hərəkətverici qüvvədir. Bu düşüncə türklərin "Yaradılış" dastanında da var. "*Bu dastana görə, dünyada ilk dəfə su olmuşdur. Türklərə görə, Qara xanın suyun üzünə tüpürməyindən quru parçaları, materiklər və qitələr, sonra isə bitkilər, heyvanlar və insanlar yaranmışdır. Şumerlərə görə, tanrılar insanları onlara xidmət etmək üçün yaratmışdı. Şumer alimlərinin fikrincə, tanrılar çoxdur və onların hər birinin bir işi var. Tanrılar birləşib dünyanı hərəkətə gətirirlər. Tanrılar nə istəyirsə o şey baş verə bilirdi"* (4, 15).

İnsanın qisməti yaşamaq və ölməkdir. İslamdan öncəki türk inancında da tanrı insan övladını ölümlü yaratmışdır. Bu fikirlə Kül Tigin abidəsində qarşılaşırıq. Burada "tanrı kişi oğlunu ölümlü yaratmışdır" ifadəsi yazılmışdır. Türk kağanı Allah tərəfindən müxtəlif səlahiyyətlər verərək insanlara hökmranlıq etmək üçün taxta çıxır. Şumerdə tanrılar şəhər ağalarını seçmək və səlahiyyətlər verməklə ölkəni özləri idarə edirdilər Şumerlərin inancla bağlı bu kimi düşüncələri sonrakı dinlərə də təsir etmişdir. Hətta kitablı dinlərdə, Tövrat və Quranda da qədim şumer inancı ilə üst-üstə düşən epizodlar çoxluq təşkil edir.

Şumerlər çoxtanrılı inanca sahib idilər. Tanrıları razı salmaq üçün onlara məbədlər tikirdilər. Onların məbədləri Zikkurad adlanırdı. Ziqquratlar yeddi mərtəbəli idi və üç əsas hissədən ibarət olurdu. Birinci mərtəbələr ərzaq anbarı, orta mərtəbələr məktəb və məbəd, sonuncu mərtəbələr isə rəsədxana kimi istifadə olunurdu. Yazının ixtirasının məbədlərə əsaslanır. Gil lövhələrə yazılar yazılıb məbədlərdə qorunub saxlanılırdı. Tarixi qaynaqlara görə, şumerlər ölüləri qəbiristanlıqda dəfn edən ən qədim millət idilər (2).

Şumerlərdə dərk edilən bir obyekt, Tanrı var idi və onlar insan görünüşündə idilər və fövqəlbəşəri güclərə malik ölməz varlıqlar idilər. Tanrılar insanlara nə istədiklərini söyləməzlərdi. İnsanların taleyinə məhz tanrılar qərar verərdilər. Qədim şumerlərdə hər şeyin allahı var idi. Tanrılar insan görünüşündə olsa da, insanlardan üstün qüvvələrə sahib idilər. Anu göy allahı, Enlil hava allahı, Nimmah ana allah, Utu günəş allahı, Ninti həyat allahı, İnanna eşq və məhəbbət allahı idi (7). Tufan və daşqın tanrısı, yəni hava allahı Enlil deyə bir tanrı var. Qədim şumerlər düşünürdülər ki, tufan və daşqın zamanı tanrılar qəzəblənmiş olur. Bunun üçün tanrıları qəzəbləndirmək, günah iş görmək olmaz. Tanrıların sırasında ən uca mərtəbədə tanrı Anu dayanırdı. O bütün canlıları məhv etmək ixtiyarına sahib idi. Tufan və daşqın allahı Enlil Anunun oğlu idi. Eyni zamanda digər bütün allahlar da Anu və Kinin övladları idi. Şumerlərə görə təbiət hadisələrini allahlar idarə edirdilər. Təbiətdə baş verən dəyişikliklərin elmi əsasda deyil, allahlar əsasında açıqlamağa çalışırdılar.

Şumer inancına görə, tanrılardan başqa yarı tanrı, yarı insan qəhrəmanlar da var idi. Bunlardan biri də Bilqamısdır. O, b.e.ə. 2700-ci ildə yaşamış qeyri-adi üstün qüvvələrə malik, sonsuzluq axtaran bir hökmdar idi. Ona həsr olunmuş dastan üç min sətirdən ibarət idi.

Şumerlərdə tanrıları sevindirmək, niyyət etmək, xəstəlikdən qurtulmaq və əhd etmək üçün sağlam və ya xəstə olmayan heyvanı qurban vermək inancı var idi. Ayrıca, altmışlıq say sistemini də şumerlər kəşf etmişdi. Belə ki, bir saatın 60 dəqiqə, bir dəqiqənin 60 saniyə olması, çevrənin 360 dərəcə olması fikirləri də şumerlərə aid idi. Şumerlərin bir günləri isə 12 saatdan ibarət idi. Göy cisimlərini elə yaxşı araşdırmışdılar ki, eradan əvvəl olmasına baxmayaraq, beş planeti və 12 bürcü adlandırmağı bacarmışdılar. Yaradılışla bağlı əfsanələr və "Habil və Qabil"lə bağlı əhvalat da məhz şumerlərə aid idi. "Bu gün istifadə etdiyimiz bürc adları şumer dilindədir. Bu bürclərin hər birində bir tanrı dayanır. Günəş tanrısı bu bürcləri idarə edir. Günlük həyatda sudan çox şərabdan istifadə edildiyinə görə şərab allahı da var idi. Onlar üçün məbədlər və tanrılar çox önəmli olmuşdur. Şərab allahı qədim yunanlarda da var idi. Müasir dövrümüzdə istər xristianlıqda, istərsə də islam dinində qədim şumerlərdən qalma inanclar mövcuddur. Belə ki, Şərqi Türküstandan Balkanlara qədər mart ayında qeyd olunan Novruz bayramı ilə üst-üstə düşən məqamlar var. *"Qədim şumerdə tanrı Dumuzi və tanrı İnannanın bir-birləri ilə görüşməsi 21 mart tarixinə təsadüf edir. Bu gün həm də gecə və gündüz bərabərləşir. Bu iki tanrı bu tarixdə evlənirlər. Uzun müddətdən sonra İnannanın bacısı yeraltı dünyasına gedir. Adətə görə yeraltına səyahət edənlər bir də yer üzünə qayıda bilməzdi. Bunu bilən tanrı İnanna tanrılarda yalvarıb bacısını qaytarmağı istəyir. Bu tarix Asiya xalqlarında və İrandilli xalqlarda Novruz adı ilə yayılmış bayrama bənzəyir. Türklər isə bu bayrama "Yeni gün" adı verirlər. Anadoluda Xıdır bayramı keçirilir"*. (12, 905).

Şumerlər Günəşi ədalətin simvolu kimi görür, Günəşin qaranlığı aydınlatdığı kimi, ədalətin də qaranlığı aydınlatmasına inanırdılar. Xristianların pasxa bayramı da aprel ayında məhz bu evlilik hadisəsinə bağlanır. Şumerlər hətta ölüb yenidən dirilən günəş allahının şərəfinə 25 dekabrda evdə şam ağacı bəzəyər, üzərinə müxtəlif meyvələr sancardılar. Bu inanc isə Milad bayramına bənzəməkdədir. Yerə düşən çörəyin öpülməsi, insanların torpaqdan yaradılması fikri, qadınların kişilərin qabırğa sümüyündən yaradılması fikri şumer mixi yazılarında qəribə bir şəkildə detallı olaraq yazılmaqdadır. M.İ.Çığ və M.Ardcı qədim türklərdə xüsusilə, Sibir türklərinin 21 dekabr günü Narduqan bayramı qeyd etdiklərini yazırlar. Onlar bu bayramın xristianlıqla əlaqəsinin olmadığını qeyd edirlər. Belə ki, bu bayramın təfərrüatlarına baxsaq görərik ki, eyni ilə Milad bayramında olduğu kimi, Şaxta baba əvəzinə "Ayaz Ata" deyilən bir varlıq bayram günü çıxıb gəlir. Evə bəzədilmiş şam ağacı gətirilir. Bu inanc şamanist türklərdə olmuşdur. Məşhur türkiyəli türkoloqlar A.Taşagil və A.Məhəmməd Çay isə bu adəti türklərin xristianlardan, xüsusilə, slavyanlardan mənimsədiklərini türk kültürünə aid olmadığını iddia edirlər. (13)

Görünür ki, rituallar miflərdən ilhamlanır və hakimiyyət tərəfindən yaradılır. Şumer inanclarında xüsusi yer tutan sehr, falçılıq kimi əməllər cəmiyyət tərəfindən "müqəddəs" sayılanlarla ünsiyyət vasitəsi kimi görülmüş, siyasi və ondan dini idarəçilər hakimiyyətin möhkəm qorunması üçün istifadə edirdilər. Bu araşdırmadan görünür ki, şumer dini inancında müxtəlif ibadət və mərasimlər, sehr, falçılıq şumerlərdə var idi.

Falçılıq sehr və cadu ilə bağlı inanclar qədim türklərdən uyğurlarda görünür. Şərqi Türküstanda tapılan, IX əsrə aid uyğur abidəsi olan İrk Bitig əsərində 66 fal vardır. Burada zər atılır. Zərdəki xalların sayına əsasən fal baxılır. Burada yuxular yozulur, gələcəklə bağlı ön görücülük edilirdi (11, 5). Fal baxma buddist uyğurlara xas xüsusiyyət idi. Sehr, cadu və falabaxma göytürklərdə yox, məhz uyğur türklərində görünürdü. Bunun səbəbi isə uyğurların buddist olması idi.

Şumerlərdə ibadət, ümumiyyətlə, dualar, qurbanlar və dini mərasimlərdən ibarət idi. Namazdan sonra məbədlərdə ən çox görülən ibadət qurbanlardır (2, 141). Qurbanlar qanlı və qansız olaraq iki yerə bölünürlər. İlahilərin rizasını qazanmaq, onların diqqət və yardımını almaq, hər hansı bir bəladan qaçmaq üçün bəzi heyvanlar kəsilərək qurban edilirdi. Qansız qurbanlıq meyvə, tərəvəz, müxtəlif bitkilər, şərab, su, zeytun yağı, meyvə nektarları və müxtəlif maye ekstraktları, otlar, ağac budaqları və xoş qoxu verən buxurdan ibarət idi (5, 15).

Qədim türklərdə də qurban vermə var idi. Qədim türk yazılı abidələrində "yemlig" sözü işlədilmişdir. Qədim türk yazılı abidələrindən qədim türklərin, xüsusilə, göytürklərin qurban vermə faktları aşkarlanır. Bunu arxeoloji qazıntılardan bəzi heyvan qalıqlarının və xaqanla birgə atların və bəzi heyvanların dəfn olunması faktlar görünməkdədir. Qədim türklərdə rituallar qurbansız olmurdu. Ritual zamanı mütləq qurban verilməli idi.

Şumerlərdə insanın ibadət və rituallarla əhatə olunmuş mövqeyi, antropoqoniya ilə müəyyən edilir. Buna əsasən, insan ancaq panteondakı tanrıların ehtiyaclarını ödəməklə xidmət etmək üçün yaradılmışdır. Şumerlərlə türklər arasında bir digər oxşarlıq hər iki xalqın təqvimə sahib olması idi. Lakin şümerlərdə "Ay" təqvimi olduğu halda, qədim türklərdə "on iki heyvanlı" təqvim işlədilmişdi. On iki heyvanlı təqvimə əsasən, 12 ilin hər biri bir heyvanı təmsil edir. Təqvimə dovşan, siçan, öküz, ilan, toyuq, pələng, meymun, qoyun, it, donuz, at, timsah daxildir. Hər 12 ildən bir il təkrarlanır. İllər uğurlu və uğursuz iki yerə bölünür. Donuz, toyuq, ilan, meymun ili ağır keçən illər sayılır. Şumerlərə görə bir ay 30-31 gündən ibarət idi. Bir ildə iki fəsil var idi, qış və yay.

**Nəticə**

Türklər də şumerlər kimi qədim və köklü sivilizasiyaya sahib idilər. Bu iki xalq, mədəniyyət arasındakı bənzərliklər tarixçilərin və alimlərin diqqətini cəlb etmişdir. Tədqiqatlardan aydın olur ki, şumerlərlə türklərin dini inanc sistemi arasında əsaslı bənzərlik və fərqliliklər çoxdur. Məqalədə bir neçə qaynaq əsasında paralelliklər izlənmişdir. Belə qənaətə gəlinmişdir ki, tarixin qədim zamanlarında bu iki xalq ya genetik baxımdan, ya da coğrafi baxımdan yaxın olmuşlar. Araşdırmalar göstərir ki, bu bənzərliklər daha çox inancın ilkin mərhələsində özünü göstərir. Qədim türklərin kosmoqonik düşüncələri artıq formalaşmışdı. Onlar yeri göyü yalnız bir ilahi qüvvənin, Tanrının yaratmasına inanırdılar. Bu inanc sisteminin adı tanrıçılıq və ya tengrizim idi. Eyni zamanda bir çox inancı özündə birləşdirən şamanizmdə də bu bənzərliklər görülür. Şumerlərdə çoxallahlılıq var idi. Amma türklərdə isə təktanrılı inanc sistemi idi. Bənzərliklər isə qurbanların verilməsi, sehr və cadu ritualları, rəqəmlərin müqəddəsləşdirilməsi, dünyanın yaradılışı, kosmoqonik düşüncələri, ilahi qüvvələr, inanc və rituallar əsasında qədim türk və şumerlərdə ortaq nüanslar kimi ortaya çıxır. Bununla yanaşı, fərqliliklər də yox deyil. Səyahətə çıxanın arxasınca su atmaq, qırmızı lent bağlamaq, ağaclara bez parçaları bağlamaq, taxtaya 3 dəfə vurmaq və qulaq çəkmək, nəzərə inanmaq, ölən şəxsin yas mərasiminin təşkil olunması, ölünün örtüyə bürünməsi, yasa ağı deyənlərin gəlməsi, yaxşı ruhların qarşılanması, pis ruhların qovulması ritualları, təbiət ruhlarına inanmaq, paralel dünya ilə əlaqə yaratmağa çalışmaq, ovsunçuluq, Ayı və Günəşi görəndə salam vermək və s. kimi inanclar qədim türklərə məxsus idi və şumer inancı ilə fərqli xüsusiyyətlər kimi ortaya çıxır.

## ƏDƏBİYYAT


1. Ağasıoğlu F.A. Azərbaycan türklərinin İslamaqədər tarixi (Doqquz Bitik), 3 cilddə, I c., Bakı: Ağrıdağ, 2014. 364 s.
2. Altuncu A. Sümer Mitolojisi Bağlamında Otorite Tarafından Şekillendirilen İbadet ve Törenler (https://web.archive.org/web/20160625130254/http://ilahiyat.kilis.edu.tr/dergi/6.pdf)
3. Altuncu A. Şumerlərdə Tanrı anlayışı və tanrılar Panteonu // Yedi Aralık Üniversitesi, Sosyal Bilimler Dergisi, Kilis, 2014, C. IV, s. 118-142.
4. Cəfərov N. Qədim türk ədəbiyyatı, BakAzAtam, 2014. 319 s.
5. Çığ, M.İ. Şumerler ve Türkler (https://mail.google.com/mail/u/0/?pli=1#inbox/FMfcgzGrbRcHBbJpKRdNQBFbmfzwxPlc?projector=1&messagePartId=0.1)
6. Esin E. Türk Kozmolojisine giriş, İstanbul: Kabalcı Yayınevi, 2001. 198 s.
7. https://www.britannica.com/place/Mesopotamia-historical-region-Asia/The-emergence-of-Mesopotamian-civilization
8. *Kramer S.N.* In the World of Sumer: An Autobiography. Michigan, Wayne State University Press, 1988, s. 44.
9. Ögel B. Dünden Bu Güne Türk Kültürünün Gelişme Çağları, İstanbul: Türk Dünyası Araştırmaları Vakfı, 1988. 788 s.
10. Rəcəbli Ə.Ə. Qədim türk yazısı abidələri. 4 cilddə, 2 c., Bakı: Nurlan, 2009. 463 s.
11. Uluç G., Hüseynli A., Mehdiyeva D.V., Özcan Q.S. Irk Bitig (Qədim uyğur dilində yazılmış fal kitabı). Bakı: TYV nəşriyyatı, 2013. 120 s.
12. https://dergipark.org.tr/tr/download/article-file/227892


***Резюме***

***Назим Гусейнли***



***Сходства и различия между шумерскими и древними тюркскими верованиями***

Шумеры, древнейший народ, занимают большое место в истории мировой культуры. Эта культура Б.Э. Он был создан в IV тысячелетии в местности под названием Месопотамия, расположенной между реками Тигр и Евфрат. Шумеры создали там великую цивилизацию и долгое время поддерживали эту культуру, продолжая свое существование не менее 2000 лет. Тюрки, как и шумеры, имели древнюю и глубоко укоренившуюся цивилизацию. Сходство между этими двумя народами и культурами привлекало внимание историков и ученых. Между системами религиозных верований шумеров и тюрков имелись фундаментальные сходства и различия. В статье прослеживаются параллели на основе нескольких источников. Сделан вывод, что эти два народа были либо генетически, либо географически близки в древние времена истории. Исследования показывают, что эти сходства наиболее очевидны на начальных стадиях веры. Уже сложились космогонические мысли древних тюрков. Они верили, что небо и земля были созданы одной лишь божественной силой, Богом. Название этой системы верований было «божество». В то же время эти сходства можно увидеть и в шаманизме, объединяющем множество верований. У шумеров было многобожие. Но у тюрков была монотеистическая система верований. Сходства возникают как общие оттенки в древнетюркских и шумерских языках, основанных на жертвоприношениях, магических и колдовских церемониях, освящении чисел, сотворении мира, космоконических мыслях, божественных силах, заклинаниях и ритуалах.


***Ключевые слова:*** *шумеры, древнетюркский, вера, мифология, культура*

***Summary***

***Nazim Huseynli***

***Similarities and Differences between Sumerian and Old Turkish Beliefs***

Sumerians, the oldest people, have a great place in the history of world culture. This culture B.E. It was created in the IV millennium in the area called Mesopotamia, located between the Tigris and Euphrates rivers. The Sumerians settled in Mesopotamia between the Tigris and Euphrates rivers 6,000 years ago. They built a great civilization there and maintained this culture for a long time, continuing their existence for at least 2000 years. The Turks, like the Sumerians, had an ancient and deep-rooted civilization. The similarities between these two peoples and cultures have attracted the attention of historians and scientists. There were fundamental similarities and differences between the religious belief systems of the Sumerians and the Turks. Parallels are traced in the article based on several sources. It has been concluded that these two peoples were either genetically or geographically close in the ancient times of history. Studies show that these similarities are most evident in the initial stage of belief. The cosmogonic thoughts of the ancient Turks were already formed. They believed in the creation of heaven and earth by only one divine force, God. The name of this belief system was tengrizism. At the same time, these similarities can be seen in shamanism, which unites many beliefs. The Sumerians had polytheism. But the Turks had a monotheistic belief system. Similarities emerge as common nuances in ancient Turkic and Sumerian based on sacrifices, rituals of magic and witchcraft, consecration of numbers, creation of the world, cosmoconic thoughts, divine forces, inac and rituals.

***Key words:*** *Sumers, ancient Turkic, belief, mythology, culture*

Redaksiya heyətinin üzvü fil.e.d., prof. Cəlilov Firudin Ağası oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.